No: 03 2025
https://doi.org/10.64400/ea25-3-01
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

**TARİX VƏ ANTROPOLOGİYA**

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ QƏRBİ AZƏRBAYCANDA ERMƏNİ VƏHŞİLİYİ SƏNƏDLƏRİN DİLİ İLƏ

**Fəxrəddin CƏFƏROV**[1], **Nadir HÜSEYİNBƏYLİ**[1]

[1] Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan.
**Yazışılan müəllif:* fexreddinceferov@ndu.edu.az

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi: 04.08.2025*
*Nəşr edilmə tarixi: 28.10.2025*

**AÇAR SÖZLƏR:**
Qərbi Azərbaycan, A.Şadlinski, Vedibasar, Kəalbalı xan, “Qırmızı tabor”

**XÜLASƏ**

XX əsrin əvvəllərindən başlayaraq istər İrəvan quberniyasında, istərsə də Naxçıvan, Şərur-Dərələyəz, Ordubad və Zəngəzur qəzalarında daşnak ermənilər tərəfindən baş vermiş qanlı soyqırım və deportasiyası siyasətinə dair Naxçıvan, Gürcüstan, Ermənistan və Azərbaycan Dövlət arxivlərində yüzlərlə arxiv sənədlərinə rast gəlirik. Bu sənədlər xususi ilə Qərbi Azərbaycanda ermənilərin azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər, qırğınlar, dağıntılar, yurdlarından qovulan azərbaycanlıların aclıq və xəstəlikdən məhv olmalarına dair o dövrün qanlı sənədləridir. Bu haqda Azərbaycan Respublikası və Naxçıvan MR dövlət arxivlərində kifayət qədər sənədlər vardır. Həmin arxiv sənədlərində ermənilərin Qərbi Azərbaycanın bölgələrində azərbaycanılara qarşı törətdikləri saysız-hesabsız vəhşiliklər öz əksini tapmışdır.

## GİRİŞ

Arxiv sənədləri 1918-1920-ci illərdə ermənin daşnak-quldur dəstələrinin azərbaycanlılara qarşı təkcə Qərbi Azərbaycanda deyil, həm də Azərbaycan ərazisində törətdikləri vəhşiliklər təkzibedilməz faktlarla subut edir.

Azərbaycan Respublikası Parlament və hökuməti adına İrəvan, Zəngəzur, Naxçıvan, Ordubad və başqa yerlərdən gələn yüzlərlə şikayət ərizəsi, teleqram və məktublarda erməni quldur dəstələrinin azərbaycanlı əhalinin başına gətirdikləri müsibətlər haqqmda ətraflı məlumat verilirdi.

İrəvan quberniyası müsəlman yerliləri idarəsinin sədri T. Makinskinin 4 yanvar 1919-cu il tarixli məlumatında deyilirdi: “1917 - ci ilin dekabrından 1918 - ci ilin iyununa qədər İrəvan quberniyasında erməni qoşun hissələri tərəfindən 200- dən çox müsəlman kəndi dağıdılmış yandırılmış, əhalisinin bir hissəsi məhv edilmiş, bir hissəsi isə dağlara qaçaraq, orda aclıqdan və soyuqdan məhv olmuşdur. Hazırda erməni qoşun hissələri müsəlmanların yaşadığı Sürməli qəzasını təmamilə, İrəvan, Eçmiadzin və Şərur qəzasının isə bir hissəsini tutaraq Naxçıvana doğru hərəkət edirlər. Günahsız müsəlman əhalisi ya qılıncdan keçirilir, ya da öz kəndlərindən qovularaq dağlardan keçərək İrəvana qaçırlar ki, bu onları labüd ölümlə hədələyir. Zorla boşaldılmış ərazilərə isə Türkiyədən qaçmış ermənilər yerləşdirilir” (l, s.107) 1918-ci ildə olduğu kimi 1919-1920-ci illərdə də erməni daşnakları İrəvan qubemiyasınm Vedibasar, Qəmərli, Böyük Bəyazit, Şurməlik, qəzalarının bir çox müsəlman kəndlərinə hücumlar edərək, müsəlman əhalisinin çoxunu qırmışlar. Lakin vedililər həmişə ermənilərə qarşı mərdliklə vuruşmuşlar.

Doğrudan da, A.Şadlinskinin rəhbərlik etdiyi “Vedi taboru” ermənilərin hücumlarının qarşısını alaraq döyüşlərdə ermənilərə böyük itkilər vermişlər.

Bunu təsdiq edən sənəd 2 iyul 1919 - cu ildə Azərbaycanın Ermənistandakı səlahiyyətli nümayəndəsi M.Təkinskinin Azərbaycan Xarici İşlər Nazirinə İrandan vurduğu teleqramdır. Həmin teleqramda yazılır: "Böyük Vedi erməni ordusunun hücumunu dəf edib və onları dəmir yoluna qədər geri çəkilməyə məcbur edib. Ermənistana çoxlu yaralı erməni gətirilir. 200-dən çox ölü erməni əsgəri var. Yarah və ölü zabitlər isə 10 nəfərdir. Deyilənlərə görə müsəlmanlar ermənilərdən 2 top, 8 pulemyot alıblar. Yeni hücum üçün ordu səfərbər edilir. Ermənilər öz uğursuzluqlarını türk əsgərlərinin olması ilə izah edirlər. İngilis missiyası da buna inanır-hakim kəndlərdə bir dənə türk əsgəri yoxdur, bu ermənilərin fərziyələridir. İngilis hərbi nümayəndəsinin bu gün mənə təqdim etdiyi bəyanatda tərəfkeşlik duyulur. Səlahətli nümayəndə Təkinski" (2.v 91-92)

Böyük Vedidə ermənilərin hücumları və törətdikləri qanlı cinayətlərlə bağlı Azərbaycan Demokratik Respublikasının Xarici işlər Nazirliyi tərəfindən 12 iyul 1919-cu il tarixdə Ermənistanın Azərbaycandakı diplomatik nümayəndəsinə rəsmi bəyanat təqdim edilmişdir. Diplomatik nümayəndə həmin bəyanatı Ermənistan hökümətinə göndərmişdir (3.s.36).

Azərbaycanlılara qarşı ermənilər haqda vedibasarlılar tərəfindən həm, Azərbaycana, Ermənistanda Azərbaycan diplomatik nümayəndəliyinə, Maku xanı Əlixana və həmçinin Naxçıvanın hərbi müdafiə Komandanı Kalbali  xana məlumat verilmişdir.

Azərbaycana qarşı ermənilər tərəfindən edilən bu vəhşiliklər haqqda İngilislərin İrəvandakı Dövlət Hərbi nümayəndəliyi İrəvan xanı Məhəmməd xana 1919- cu ilin iyulunda göndərdiyi məktubunda yazırdı: " Əlahəzrətlər! Diqqətinizə çatdırmaq istəyirəm ki, 5 iyul tarixdə (1919- cu il- F.C. N.H.) məni Əlixan Makiniski ziyarət etdi və Böyük Vedi sakinlərinin Ermənistan ordusunun müsəlman kəndlərində törətdikləri qanunsuzluqlardan bəhs edən şikayətnaməsini təqdim etdi. Bunların həqiqətə uyğun olmadığına toxunmadan Siz Əlahəzrətlərdən Ermənistanın daxili işlərinə qarışmamağı və İngilis missiyasına nümayəndə göndərməyininzi xahiş edirəm. Yerli müsəlmanarm öz nümayəndələri var. Əgər Ermənisatan hökümətinə qarşı narazılıqlar olsa onların vasitəsi ilə şikayətlərini göndərə bilələr.

Mən anlaya bilmirəm ki, Azərbaycan Diplomatik Nümayəndəsi bu halda nə məqsədlə istifadə oluna bilər; Sizə dərin hörmətimi qəbul edin. Polkovnik (İmza)" (3, s.39).

16 iyul 1919- cu il tarixdə Azərbaycanın Ermənistandakı Diplomatik Nümayəndəsi M.X.Təkiniski Azərbaycan Xarici İşlər Nazirliyinə vurduğu teleqramda isə belə yazılırdı: " Bakı Xarici İşlər Nazirinə. Xatisov hesab edir ki, Böyük Vedidə baş verən hadisələr Ermənistanın daxili işidir, Azərbaycan heç vaxt Vedibasara iddia yürütməyib və bir neçə kəndin müstəqillik əldə etməsi mümkün deyil. Xatisov şəxsən böyük vedililərin Azərbaycana köçürülməsinə etiraz etmir. Siz də razısınızsa o bir məsələni Nazirlər Şurasına çıxartsın . Mən Sizdən 2-3 günlük hərbi əməliyytları dayandırmağı xahiş edəcəyimi söz vermşəm. Xatisov söz verdi ki, hərbi əməliyyatların 2-3 günlük dayandırılması strateji planlara mane olmayacaq. Diplomatik Nümayəndə Təkiniski (4.V.10)

Ermənistanın Azərbaycandakı diplomatik nümayəndəsi Bekzadyanm Böyük Vedidə baş vermiş hadisələrlə bağlı yazdığı etraz məktubu ilə əlaqədar Məhəmmədəli xan Təkiniski Ermənistan Xarici İşlər Nazirinin 31 iyul 1919- cu il tarixdə göndərdiyi məktubunda yazırdı: Azərbaycan Respublikası Xarici İşlər Nazirinin 12 iyul tarixli (1919-F.C., N.H.) 2047№-li etirazına Ermənistan Dplomatik Nümayəndəsi Bekzadyanın cavabının məzmunu məni Sizə öz cavabımı bildirməyə məcbur edir...

Mənə hər gün müsəlmanlar tərəfindən qatillər, milis paltarı geymiş ermənilərin gecə hücumları, İrəvan şəhər küçələrində Zəngibasar, Vedibasar, Kərnibasar və digər rayonlarda baş verən qarətlər haqda şifahi və yazılı şikayətlər gəlir. Ermənilər müsəlmanların ağaclarını kəsir onların bağ və bostanlarını tuturdular.

Əzgibir, Mankus, Milli Dərəsi və başqa kəndlərin sakinləri şikayət edirlər ki, Ermənistan hökuməti onları xəyanətkarlar kimi kəndlərdən qovur. Digər kəndlərin sakinlərinin uzun müddətli xahişlərdən sonra evlərinə qayıtmağa icazə verilib. Qayıdan müsəlmanları ermənilər qarət edib qətlə yetirməyə hazırdılar və onlar qalan cüzi əmlaklarını atıb qaçırdılar. İndi bu bədbəxt müsəlmanlar məndən onları Azərbaycana köçürərək ölümdən xilas etməyi xahiş edirlər. Diplomatik Nümayəndə

M.Xan Təkiniski (4, v. 125-126)

Ümumiyyətlə, 1918-1920-ci illərdə ermənilər bundan sonra İrəvan quberniyasının Eçmiədizin qəzasına daxil olan Zəngibasar rayonunda 60-dan çox kəndi məhv etmişdilər (3.s.51).

Sənədlərdə 1919-cu ilin təkcə iki ayı ərzndə İrəvan quberniyasının Eçmiədzin qəzasmdan 62 kənd, onlardan: Hacılar, Molladursun, Tors, Ağca-qala, Arahx, Yuxarı Ağca-qala, Kərim-arx, Kiçik kənd, Qoşa Bulaq Zeynal bulağı, Zeyvə, Qulu bəy, Şəfiabad , Kolanlı, Qəmərli, Yuxarı Qarxun, Aşağı Qarxun, Talin, Qaracalar, Pir-Tikan, Urmudlu, Naçravan, Molla Bədəl , Quzuvənd, Canfıdə, İqdəli və.s.(5.v.-18).

Sürməlik qəzasından 39 kənd onlardan: Yaycı, Oba, Əxməmməd, Qasımcan, Sarı çoban, Sürməli, Qaraqoyunlu, Hüseyn kəndi, Səfərdqulu, Xaraba Əlincan, Cənnətabad, Həsənxan, Oğuzlu, Qızıl Zakir, Dərə kənd və siar. İrəvan qəzasında isə Zəngəzur qəzasını çıxmaq şərti ilə bütün müsəlman kəndləri erməni silahlı dəstləri tərəfindən dağıdılmış, yandırılmış və əhalinin xeyli hissəsi vəhşicəsinə öldürülmüşdür. (5. v. 16-17).

Ermənilərin hiyləsi ilə İrəvan quberniyasından qaçqın düşmüş müsəlman sakinləri öz kəndlərinə qayıtdıqdan sonra ermənilər tərəfindən qılıncdan keçirilərək məhv edilmişdir.

Bu sənəd bunu bir daha sübut edir. 7 yanvar 1920-ci il tarixdə Vedi özünümüdafiə dəstəsinin komandiri Abbasqulu bəy Şadliniski Böyük Vedidən Naxçıvanda yaranan Çenerar qubernator ordusuna belə bir teleqram göndərir: "Toxmaqan kənd sakinlrindən 37 nəfər ermənilərin müqaviləsinə inanaraq öz yurdlarına köçdülər. Ancaq orada yerləşən ermənilərin nizami qoşun hissələri tərəfindən kəsilib doğrandılar. Məlumat üçün bu vəziyyəti Sizə çatdırıram. A. Şadliniski" (6, v. 74).

Teleqramdan bir neçə gün sonra özünümüdafiə dəstəsinin komandiri Abbasqulu bəy Şadliniskinin Musa Səttar oğlunun rəhbərlik etdiyi dəstə tərəfindən əsir götürülmüş ermənidən aldığı məlumatdan aydın olur ki, üç gündən sonra Vedi ərazisinə üç istiqamətdə: Ağdağ.ş Çunaxçı və Şirazi tərəfdən hücum olacaqdır. Musa Səttar oğlunun Naxçıvana Araz-Türk Respublikasının müdafiə komandanı (naziri) Kalbalı xan Naxçıvanskinin yanına lazımı köməklik və göstəriş verməsi üçün göndərir.

Musa Səttar oğlu Kalbalı xan Naxçıvanski ilə görüşüb Abbasqulu bəy Şadliniskinin Vedibasar və eləcə də İrəvan quberniyasında daşnak ermənilərin törətdikləri vəhşiliklər haqda məlumatını çatdırmaqla bərabər yaxın günlərdə Vediyə üç tərəfdən olacaq ermənilərin güclü hücumu haqda məlumat verir.

Vedi özünü müddafiə dəstəsinin üzvü, Qırmızı taborçu Bəylər Cəlilov xatirələrində yazır: "Xalqımızın igid oğlu Abbasqulu bəy Şadliniski Vedibasarın mərd oğullarından silahlı dəstə təşkil edərək onlara rəhbərlik edib, iki il daşnak erməni quldurlarının Vediyə olan basqınlarını dəf etdi, işğalçılara qarşı vuruşdu. Bu vaxt onun dəstəsində Musa Səttar oğlu, Həbib və Əkbər Yetim Əli oğlu, Abbas Əjdər oğlu, İslam Şadlinski, Seyfuulla Süleymanov, Şəmdin Mahmudbəyov və başqa görkəmi şəxslər var idi

1920-ci ilin iyun aymda daşnaklar yenidən çox böyük qüvvə ilə 40-50 km-lik cəbhə xətti ilə Vediyə hücum etdilər. Bizdə hərbi sursat az idi. Şiddətli döyüşlərdən sonra daşnakların ağır həmləsinə tab gətirə bilməyib Vedibasar əhalisindən 10 minlərlə ailə İrana getməli oldu (6, v. 242-244).

1920-ci ilin mart ayından başlayaraq erməni daşnak qoşunları Vedi, Cüvə və Yaycıdan başlamış Ordubadadək ərazini işğal edib Zəngəzur və Dağlıq Qarabağı Ermənistana birləşdirmək üçün intensiv surətdə hərbi hazırlıq işləri aparırdılar. Bu vaxt sərhəd sahələrə 6630 nəfər piyada, 1130 nəfər süvari, 66 pulemyot və 26 top toplamışlar, Dro, Nijde, Çippon (Yapon) və başqa daşnak liderləri Zəngəzurun müdafiəsinə böyük əhəmiyyət verirdilər (7, v. 15-30 iyun 2006- cı il).

1920-ci ilin iyulun 28-də Naxçıvanda Sovet hakimiyyət qurulur, İnqilab Komitəsi yaranır, İnqilab Komitəsinin 1920-ci il sentyabr aymm 25-də keçirdiyi iclasında bir çox məsələlər ilə yanaşı Abbasqulu bəy Şadliniskinin Naxçıvana çağrılması barədə də məsələ müzakirə edilərək onu Naxçıvana dvət etmək üçün Seyfulla Süleymanovu və Məmməd Rəhimovu İrana göndərilməsini

qərara alırlar.

Qırmızı taborun döyüşçüsü, partizan Bilal Şadliniski öz xatirələrində yazır: “Sentyabr aynın axırları idi. Hər yerə xəbər yayıldı ki, Naxçıvandan nümayəndələr gəlib. Naxçıvan İnqilab Komitəsi adından Abbasqulu bəyə məktub göndəriblər. Onu öz dəstəsi ilə Naxçıvana dəvət etmişlər. Gələn nümaəndələrin biri Böyük Vedi kəndindən olan Seyfulla Süleymanov və Naxçıvan partizan hərəkatının faəl üzvü Məmmd Rəhimov idi. Mərənd vilayətində ayrı-ayrı kənd və qəsəbələrdə yerləşdirilmiş qaçqın əhalinin qabaqcılları dərhal Mərənd şəhərinə toplaşdılar. Abbasqulu bəy müraciətlə: Hamınız 2-3 gün müddətinə tam hazır olun, birlikdə Naxçıvana yola düşüb məslək qardaşlarımız ilə birləşək.

İzdihama toplaşan mübarizlər bir səslə Biz hazırq deyə sevinclə izdihamdan ayrılaraq yaşadığınız yerlərə qayıtdıq (8, v. 1-3).

A.Şadliniskinin partizan dəstəsi iki gündən sonra Mərənd şəhərindən Culfaya yola düşür. Naxçıvan qəzasının Araz çayı sahilindəki sərhəd postunda Naxçıvanın fövqalədə Komissarı və başqaları A.Şadliniskinin dəstəsini hörmətlə qarşılayılar. A.Şadliniskinin dəstəsi Naxçıvana gəlir.

Naxçıvan İnqilab Komitəsinin qərarı ilə dəstəyə “Qırmızı tabor” adı verilir və Abbasqulu bəy Şadliniski taborun komandiri təyin edilir.

“Qırmızı tabor”un qarşısında belə bir vəzifə qoyulur ki, Əznəbürd-Qarabağlar dağ ətəkləri ilə hərəkət edib, Bağırsaq dərə ilə Şədərək arasında mövqe tutsun. Bu əməliyyat planı noyabr ayı (1920-ci il F.C., N.H.) ərzində bütünlüklə həyata keçirilr, nəticədə Şahtaxtı, Xok kəndlərində 1200 erməni əsgər və zabiti əsir alınır, çoxlu hərbi qənimət ələ keçirilir. Şərur qazası bütünlüklə azad edilir və dekabrm 2-də orada qəza İnqilab Komitəsi təşkil olunur.

1920-ci il iyunun 16-da isə Dərələyəzdə Abbasqulu bəyin komandanlığı ilə “Qırmızı tabor” əks hücuma keçib düşməni tutduğu mövqelərdən çıxarır və kəndi azad edirlər. 1921- ci il iyulun axırlarında Dərələyəz əməliyyatı bütünlüklə başa çatır. Daşnak qoşunlarının qalıqları Zəngəzura çəkilir. Daçnak qoşunları tamamilə məhv edilir. Canlarını qutaranlar baş götürüb qaçırlar.

Beləliklə, 1918-1920-ci illərdə indiki Qərbi Azərbaycan ərazisində yaşayan 575 min nəfər azərbaycanlının 565 mini qırıldı və ya doğma torpaqlarından qovuldu. Onlardan yalnız 1922- ci ildə cəmi 60 min nəfər öz doğma yurdlarına qayıda bildi (3, s. 56).

Çoxsaylı tarixi sənədlər şahidlik edir ki, 1905-1907, 1918-1920- ci illər Qafqazda öz tarixi etnik ərazilərdə etnik təmizləmə və soyqırımı siyasətinə məruz qalan milyonlarla azərbaycanlı kütləvi surətdə qətlə yetirilmiş, dədə-baba torpaqlarından deportasiya olunmşdur.

## ƏDƏBİYYAT


1. Paşayev A.XIX-XX əsrlərdə Ermənlərin Azərbaycan xalqına qarşı ərazi iddiaları, soyqırım və deportasiyaları.Bakı: Çaşıoğlu.2011.328s.
2. Nax.MRDA f.314.siy5[a] iş 74
3. Cəfərov F.A. Erməni vəhşiliyi. Bakı, 2009,186 s.
4. Nax.MRDA f.314.siy5[a] iş 74.
5. Nax.MRDA f.314.siy5[a] iş 71
6. Nax.MRDA f.582.siy 1 iş 48
7. “Vedibasar” qəzeti, 15-30 iyun 2006-cı il.
8. Nax.MRDA f.574.siyl iş 20